Əlavə 1

**LAYİHƏ TƏKLİFİ FORMASI**

Qeyd: Layihə təklifi, layihənin fəaliyyət planı və xərclər smetası müsabiqə qaydalarına uyğun hazırlanmalı və həmin sənədlərin müvafiq bəndlərinə dəyişiklik edilməməlidir.

## 1. LAYİHƏNİN ADI

Mingəçevir Dövlət Üniversiteti nəzdində "Qazilərə sosial xidmət mərkəzi" adlı səriştə yönümlü elmi-tədqiqat mərkəzi

## 2. LAYİHƏNİN İDEYASI

Birinci və İkinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda mübarizə aparmış qazilərimizin qayğısına qalmaq hər bir Azərbaycan vətəndaşının borcudur. Bu gün Azərbaycanda qaziyönümlü müxtəlif dövlət və qeyri-hökumət təşkilatları və onları həyata keçirdiyi bir sıra proqramlar mövcud olsa da, belə institutlarının universitetlərdə də yaradılması və fəaliyyət göstərməsi məqsədəuyğundur. Xüsusən, "Sosial iş", "Sosial psixoloji xidmət" ixtisaslarının mövcud olduğu universitetlərdə obyektini qazilərin təşkil etdiyi sosial xidmət mərkəzinin yaradılması, yuxarıda qeyd olunan ixtisaslarda təhsil alan tələbələrin əldə etdikləri nəzəri biliklərə əsaslanaraq səriştəyönümlü təcrübə əldə etməsinə, həmçinin qazilərə xidmət göstərməklə cəmiyyətin onlara diqqət və qayğısının artmasına töhvə vermiş olacaqdır.

## 3. LAYİHƏNİN TƏSVİRİ

Qazilərə xidmət günümüzün aktual problemlərindəndir. Dövlət Statistika Komitəsinin 2023-cü il üçün dərc etdiyi məlumatına əsasən Azərbaycanda müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sayı 20 000-dən çoxdur. Onlar dövlətin himayəsində olsalar da hər zaman daha çox mənəvi, psixoloji, fiziki dəstəyə ehtiyacları var. Böyük əksəriyyəti gənc yaşda olan qazilərimizin gənc tələbələrlə ünsiyyəti, onlarla vaxt keçirməsi, eyni zamanda ağır yataq xəstəsi olan

qazilərimizə gənc tələbələr tərəfindən qayğı göstərilməsi hər iki tərəfin ictimai, mənəvi-psixoloji yöndən özünü realizə etməsinə səbəb ola bilər.

Digər tərəfdən "Sosial iş" və "Sosial psixoloji xidmət" ixtisası üzrə təhsil alan tələbələr üçün bu mərkəz səriştəyönümlü elmi-tədqiqat laboratoriyası funksiyasını yerinə yetirəcək. Qazilərə sosial xidmət göstərən tələbələrin bu istiqamətdə səriştə əldə etməsi, onların gələcəkdə əmək bazarına daha hazır səviyyədə daxil olması baxımından da mühüm rol oynamış olacaq. Hazırda Azərbaycan universitetlərində belə bir təcrübə mövcud deyil. Mingəçevir Dövlət Universiteti nəzdində "Qazilərə sosial xidmət mərkəzi" adlı səriştəyönümlü elmi-tədqiqat mərkəzinin açılması diğər ali təhsil müəssisələri üçün də həm stimul, həm də mütərəqqi örnək ola bilər. Bu layihənin gerçəkləşməsi üçün sözügedən istiqamətdə proqram hazırlanmalı, peşəkar təcrübəli pedaqoqların, bu sahənin mütəxəssisi olan alimlərin rəhbərliyi ilə  auditoriyadankənar dərs saatları dəyərləndirilməlidir. Layihəni reallaşdıra bilmək üçün "sosial xidmət" istiqamətində fəaliyyət göstərən dövlət təşkilatlarının, həmçinin qeyri-hökumət təşkilatlarının fəaliyyət meyarlarına, əsasnamələrinə, həyata keçirdikləri konkret layihələrə nümunə olaraq müraciət etmək olar.

Mərkəzin həyata keçirəcəyi tədbirlərin məqsədləri, layihələr çərçivəsində yaradılacaq elmi-tədqiqat mərkəzinə cəlb ediləcək tələbələrin qazilərə sosial xidmətin təşkilində və həyata keçirilməsi iqtiqamətində təcrübə əldə etmələri, bilik, bacarıq və vərdişlərini artırmaq, onların gələcəkdə əmək bazarına praktik vərdişlərə yiyələnmiş təcrübəli kadrlar kimi cəlb olmalarını təmin etmək, eyni zamanda qazilərin mənəvi motivasiyasını, fiziki dəstəyə ehtiyacı olduğu halda onlara gərəkən köməkliyin göstərilməsini, habelə, onlar üçün asudə vaxtlarını səmərəli keçirəcəkləri əyləncəli tədbirlərin təşkil edilməsini, birgə əmək fəaliyyəti ilə məşğul olmaqla onları yenidən cəmiyyətə adaptasiya etməyə çalışmaq gələcəkdir. Təcrübənin sonunda tələbələr əldə etdikləri nəzəri bilikləri praktiki vərdişlərə çevirəcək, gələcəkdə qazilərlə sosial işin təşkili istiqamətində yeni metodlar təklif etməyi bacaracaq, yetərli vərdişlərə yiyələnəcəklər.

Layihənin əsas vacib hissəsi, bütün layihənin bir mütəxəssisin nəzarəti altında aparılmasıdır. Bu mərhələdə Mingəçevir Dövlət Universiteti ilə əməkdaşlıq edən digər ölkələrin dost universitetlərinin “Sosial iş” ixtisası üzrə təlim keçən peşəkar pedaqoq və mütəxəssislərinin, habelə ölkəmizdə sosial xidmət istiqamətində fəaliyyət göstərən müəssisələrin  praktikasından da istifadə ediləcəkdir.

Müvafiq sillabuslar hazırlandıqdan və platformalar yaradıldıqdan sonra, təlimçi ekspertlər tərəfindən təcrübəçi tələbələrə təlimlər keçiriləcək, praktik fəaliyyəti dövründə gördükləri işlər qiymətləndiriləcək və sonda sertifikatlaşdırma aparılacaqdır. Bu sertifikat təcrübəçi tələbəyə ali təhsilini başa vurduqdan sonra əmək bazarında işə düzəlməsi üçün bir sıra üstünlüklər təmin edəcəkdir.

## 4. LAYİHƏNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

### 4.1. Layihənin məqsədi:

a) Mingəçevir Dövlət Universitetində “Sosial iş” ixtisası üzrə təhsil alan tələbələrin Azərbaycan Respublikasının sosial xidmət sisteminin gələcək mütəxəssisləri kimi onların praktiki bilik və bacarıqlarını artıqmaqdır;

b) Səriştəyönümlü praktik işin icrasi ilə yanaşı, təlimçilərdən gərəkən biliklərə yiyələnmək;

b) Sosial xidmətin məhz qazilərlə iş şəklində qurulmasını təmin etmək;

c) Digər universitetlərə nümunə olacaq (onların da istifadə edə biləcəyi) elmi-tədqiqat mərkəzi formalaşdırmaq.

### 4.2. Qarşıya qoyulan vəzifələr:

a) Sosial iş üzrə mütəxəssislər hazırlamaq;

b) Təcrübə müddətini müvəffəqiyyətlə başa vuranlara bitirmə sertifikatı və ya iştirak sertifikatı vermək.

## 6. LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLƏCƏK İŞLƏR

a) Elmi-tədqiqat mərkəzinə cəlb ediləcək tələbələri təyin etmək, elmi mərkəzi formalaşdırmaq məqsədilə mütəxəssislər tərəfindən komissiyanın yaradılması;

b) Elmi-tədqiqat mərkəzinə başçılıq edəcək elmi rəhbərin təyin edilməsi;

c) Görüləcək işin istiqamətini müəyyənləşdirmək üçün təlim proqramının hazırlanması;

c) Qazilərə sosial xidmətin həyata keçilirməsi üçün (səyyar xidmət də daxil olmaqla) otaq yaradılması; (Qazilərə xidmət sahəsinə onlar üçün yarışların təşkil olması, yataq xəstələrinə qulluq, qazilərin mədəni tədbirlərə cəlb edilməsi və s.)

d) Sosial xidmət istiqamətində təlimlərin keçirilməsi;

i) Sertifikatlaşdırma;

i) Maarifləndirici təbliğat kitabçalarının hazırlanması.

## 7. LAYİHƏNİN İCRA MÜDDƏTİ

7.1. Layihənin əhatə etdiyi müddəti və təxmini başlama-bitmə tarixlərini qeyd edin:

2025-ci ildən başlayaraq davamlı inkişafı nəzərdə tutulur.

## 8. RİSKLƏR

**8.1. Layihənin icrası zamanı yarana biləcək risklər:**

**Qazilərlə iş zamanı onların fiziki və psixoloji sağlamlığına qeyri-peşəkar yanaşma**

**8.2. Risklərin qarşısının alınması üçün görüləcək tədbirlər:**

Qazilərlə iş zamanı onların fiziki və psixoloji sağlamlığına peşəkar davranış nümayiş etdirilməsi üçün, bu istiqamətdə Azərbaycan və Türkiyədə fəaliyyət göstərən sosial insitutlarla səriştəyönümlü təlimlərin təşkili.

## 9. LAYİHƏNİN İCRASINDAN GÖZLƏNİLƏN NƏTİCƏLƏR VƏ DAVAMLILIQ

**9.1. Layihənin icrasından əldə ediləcək nəticələr:**

a) Sosial xidmət istiqamətində təcrübəci tələbələrin mütəxəssis kimi formalaşması

b) Təlimçilərin sertifikasiyası

c) Təlimatların hazırlanması

d) Bu layihə Mingəçevir Dövlət Universitetində plot layihə kimi başlamaq. Uğurlu nəticələr əldə edildikdə təcrübənin digər universitetlərdə tətbiqinə təviq etmə.

## 10. LAYİHƏNİN MONİTORİNQİ və QİYMƏTLƏNDİRİLMƏSİ

**10.1. Müvafiq qurumların cəlb edilməsi ilə mərkəzin monitorinqinin aparılmasının üsul və vasitələrini:**

Proqramın tamamlanması.

Platformanın yaradılması.

Təlimin və sertifikatın tamamlanması.

**10.2. Layihənin nəticələrinin qiymətləndirmə (ölçmə) meyarlarını qeyd edin:**

- Təcrübə nəticəsində təlimçilər tərəfindən əldə edilən müvəffəqiyyət sertifikatları.

**Lahiyyə rəhbəri:**

*MDU-nun Pedaqogika və psixologiya kafedrasının müdiri filologiya elmlər doktoru, professor Fərəh Cabbar qızı Cəlil*

***Mərkəzin rəhbəri*** *siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Məmmədov Asim*

***Koordinatorlar:*** *Pedaqogika və psixologiya kafedrasının müəllimi (doktorant) ixtisasca psixoloq Kərimov Aydın*

*MDU Sosil iş ixtisası üzrə 2 ci kurs tələbəsi Heybətzadə Nemət*